# Hz. Mehdi (ə.s)-ın zühuruna istiqamətli olaraq Risalələrdə yeri olmayan bəzi səhv izahlara cavablar və Hörmətli Adnan Oktarın Nur tələbəsi qardaşlarımıza istiqamətli şərhləri

Son dövrdə bəzi Nurçu qardaşlarımız Bədiüzzaman Səid Nursi Həzrətlərinin, hz. Mehdi (ə.s)-ın gəlişi ilə əlaqədar çox açıq bəyanlarına son dərəcə səhv şərhlər gətirirlər. Bu şərhlər Bədiüzzaman Həzrətlərinin mehdiyyət mövzusundakı açıq və dəqiq izahlarıyla açıq-aşkar ziddiyyət təşkil edir. Həm də peyğəmbər əfəndimiz (s.ə.v)-in hədislərində xəbər verdiyi məlumatlara da uyğun deyil.

Xüsusilə Nur tələbələrinin içindəki böyük qardaşların bəziləri Ustadın hz. İsa (ə.s) və hz. Mehdi (ə.s.) ilə əlaqədar açıq və aydın izahlarını səhv bir dünyagörüşüylə qiymətləndirirlər. Halbuki, Ustad risalələrində keçən ifadələrini peyğəmbərimiz (s.ə.v)-in hədisləri və böyük İslam alimlərinin fikirləri istiqamətində etmişdir. Və açıq bir şəkildə hz. Mehdi (ə.s)-ın hicri 1400-cü ildə, yəni, yaşadığımız dövrdə gələcək bir şəxs olduğunu izah etmişdir. Ancaq Nur tələbələri Ustadın son dərəcə açıq izahlarını guya mütəşabihdirlərmiş, başa düşülməsi çətin ifadələrmiş kimi qiymətləndirib təkrarən Ustadın sözlərini şərh etməyə cəhd edirlər. Bu son dərəcə böyük bir səhv və Ustadın şəxsinə qarşı edilmiş bir ayıbdır. Ustad son dərəcə hikmətli danışan, risalələrindən çox açıq və dəqiq ifadələr istifadə edərək hadisələri izah edən bir mücəddiddir. Onun şərhlərini yenidən təfsir etməyə qalxmaq, təfsirin təfsirini, şərhin şərhini etmək kimi olar ki, bu da heç doğru bir üsul olmaz.

## 1.HZ. MEHDİ (ƏS)-IN ÜÇ VƏZİFƏSİNİ GUYA 3 AYRI ADAMIN EDƏCƏYİ İDDASI TAMAMİLƏ SƏHVDİR

Nurçu qardaşlarımızdan biri; Ustadın axırzamanda zühur edəcək olan hz. Mehdi (ə.s)-ın edəcəyi üç böyük vəzifəsi ilə əlaqədar şərhini son dərəcə təhrif edərək təfsir edir. Ustadın bu ifadələrində axırzamanda guya üç hz. Mehdi (ə.s) gələcəyini və hz. Mehdi (ə.s)-ın dindarlıq, siyasət və səltənət aləmində edəcəyi üç böyük vəzifəsini ayrı-ayrı bu kəslərin yerinə yetirəcəklərini söylədiyini iddia edir. Ancaq bu şərhi Nurçu qardaşımızın çox böyük bir yanılma içində olduğunu göstərir. Ustad, Risalələrin heç bir yerində üç vəzifəni ayrı-ayrı edəcək 3 ayrı Mehdi olacağı kimi bir məntiqdən bəhs etməmişdir.

Əksinə Ustad, Əmirdağ Lahikasında axırzamanın böyük Mehdisinin üç böyük vəzifəsi olacağını, bu üç vəzifəni bir yerdə edə bilmə gücündə və iqtidarında olması səbəbiylə də özünə **"Axırzamanın böyük Mehdisi"** adı deyiləcəyini ifadə etmişdir:

### Mehdinin üç vəzifəsi

Nurun əhəmiyyətli və çox xeyirli bir şagirdi (tələbəsi), çoxlarının adından (başqaları adından) məndən soruşdu ki: "Nurun xalis və əhəmiyyətli bir qisim şagirdləri bir musirranə (israrla) olaraq axır zamanda gələn Ali-Beytin böyük bir mürşidi səni zənn edirlər və o qədər çəkindiyin halda onlar israr edirlər.

Sən də bu qədər musirranə (israrla) onların fikirlərini qəbul etmirsən, çəkinirsən. Əlbəttə, onların əlində bir həqiqət və qatı (qəti) bir hüccət (dəlil) var və sən də bir hikmət və həqiqətə görə onlara razılıq (icazə) etmirsən. Bu isə bir təzaddır, hər halda həllini istəyirik. "

Mən də bu şəxsin təmsil etdiyi çox mesail (məsələlərə) cavab olaraq deyərəm ki: O xas Nurçuların əllərində bir həqiqət var. Lakin iki cəhətdən bir təbir və şərh lazımdır.

Birincisi: **ÇOX VAXT MƏKTUBLARIMDA İŞARƏ ETDİYİM KİMİ, MEHDİ ALİ- RƏSULUN TƏMSİL ETDİYİ QÜDSİ (müqəddəs) CAMAATIN ŞƏXSİ MƏNƏVİSİNİN ÜÇ VƏZİFƏSİ VAR. ƏGƏR TEZ QİYAMƏT QOPMAZSA VƏ BƏŞƏR TAMAMİLƏ YOLDAN ÇIXMAZSA, O VƏZİFƏLƏRİ ONUN CƏMİYYƏTİ VƏ SEYİDLƏR CAMAATI EDƏCƏYİNİ RƏHMƏTİ-İLAHİYYƏDƏN GÖZLƏYİRİK VƏ ONUN ÜÇ BÖYÜK VƏZİFƏSİ OLACAQ**:

Birincisi: **FƏNN VƏ FƏLSƏFƏNİN TƏSƏLLÜTİYLƏ** (təsiriylə) **VƏ MADDİYYUN VƏ TABİYYUN TAUNU BƏŞƏR ÜÇÜN İNTİŞAR ETMƏSİYLƏ , HƏR ŞEYDƏN ƏVVƏL FƏLSƏFƏNİ VƏ MADDİYYUN** (MATERİALİZM, DARVİNİZM VƏ ATEİZM EPİDEMİYAS), **FİKRİNİ TAM SUSDURACAQ BİR TƏRZDƏ İMANI QURTARMAQDIR . ƏHLİ-İMANI DƏLALƏTDƏN MÜHAFİZƏ ETMƏK** (iman edənləri azğınlıqdan qorumaq) **və bu vəzifə həm dünya, həm hər şeyi buraxmaqla, çox zaman tədqiqatı** (tədqiqlər) **ilə məşğuliyyəti iqtiza etdiyindən** (tələb), **Həzrəti Mehdinin, o vəzifəsini şəxsən özü görməyə vaxt və hal icazə edə bilməz. Çünki, xilafəti Məhəmmədiyə (s.ə.v) istiqamətindəki səltənəti, onun ilə məşğuliyyətə vaxt saxlamır. HƏR HALDA O VƏZİFƏNİ ONDAN ƏVVƏL BİR TAYFA BİR İSTİQAMƏTDƏ GÖRƏCƏK. O ŞƏXS, O TAYFANIN UZUN TƏTQİQATI** (tədqiqləri) **İLƏ YAZDIQLARI ƏSƏRİ ÖZÜNƏ HAZIR BİR PROQRAM EDƏCƏK, ONUN İLƏ O BİRİNCİ VƏZİFƏNİ TAM ETMİŞ OLACAQ. BU VƏZİFƏNİN İSTİNAD ETDİYİ** (söykəndiyi) **QÜVVƏT VƏ MƏNƏVİ ORDUSU, TƏK İXLAS VƏ SƏDAQƏT VƏ TƏSANÜD SİFƏTLƏRİNƏ TAM SAHİB OLAN BİR QİSİM ŞAGİRDLƏRDİR. NƏ QƏDƏR DƏ AZ OLSALAR, MƏNƏN BİR ORDU QƏDƏR QÜVVƏTLİ VƏ QİYMƏTLİ SAYILARLAR.**

**İkinci vəzifəsi**: **XİLAFƏTİ MƏHƏMMƏDİYƏ (S.Ə.V) ÜNVANI İLƏ İŞARƏTİ İSLAMİYYƏTİ (İslama aid dəyərləri) CANLANDIRMAQDIR. ALƏMİ-İSLAMIN (İslam aləminin) VƏHDƏTİNİ (birliyini) NÖQTEYİ- İSTİNAD EDİB (dayaq nöqtəsi edib), BƏŞƏRİYYƏTİ MADDİ VƏ MƏNƏVİ TƏHLÜKƏLƏRDƏN VƏ QƏZƏBİ- İLAHİDƏN (bəladan) QURTARMAQDIR. BU VƏZİFƏNİN NÖQTƏİ İSTİNADI VƏ XADİMLƏRİ (XİDMƏTÇİLƏRİ), MİLYONLARLA ÜZVLƏRİ OLAN ORDULAR LAZIMDIR.**

**Üçüncü vəzifəsi**: **İNQİLABATİ ZAMANİYƏ (ZAMANA BAĞLI DƏYİŞMƏLƏR) İLƏ ÇOX EHKAMİ- QURANİYYƏNİN (QURANIN HÖKMLƏRİNİ) ZƏDƏLƏNMƏSİYLƏ VƏ ŞƏRİƏTİ-**

MƏHƏMMƏDİYƏ (S.Ə.V)-Ə QANUNLARI BİR DƏRƏCƏ ARA VERMƏSİ İLƏ O ŞƏXS, BÜTÜN ƏHLİ İMANIN MƏNƏVİ köməkləriylə VƏ BİRLİYİ- İSLAMIN (İSLAM BİRLİYİNİN) MÜAVİNƏTİYLƏ (köməyiylə) VƏ BÜTÜN ÜLƏMA VƏ ÖVLİYANIN VƏ XÜSUSİLƏ ALİ-BEYTİN NƏSLİNDƏN HƏR ƏSRDƏ QÜVVƏTLİ VƏ KƏSRƏTLİ (Sıxlıq) OLAN MİLYONLARLA FƏDAKAR SEYİDLƏRİN İLTİHAKLARIYLA (iştiraklarıyla) **O VƏZİFEYİ-MÜTƏXƏSSİS (ÇOX BÖYÜK VƏZİFƏNİ ) ETMƏYƏ ÇALIŞIR.**

**İndi həqiqəti- hal belə olduğu halda ən birinci vəzifəsi və ən yüksək peşəsi olan imanı qurtarmaq və imanı, təhqiqi (doğruluğunu isbat edərək) bir surətdə hamıya dərs vermək, hətta avamın da imanını təhqiqi etmək vəzifəsi isə, mənən və həqiqətən hidayət edici, irşad edici (doğru yolu göstərən) mənasının tam aşkar ifadə etdiyi üçün,** Nur şagirdləri bu vəzifəni bütünlüklə Risaleyi -Nurda gördüklərindən ikinci və üçüncü vəzifələr buna nisbətən ikinci və üçüncü dərəcədədir deyə Risaleyi- Nurun şəxsi- mənəvini haqlı olaraq bir növ Mehdi tələqqi (qəbul) edirlər. O şəxsi-mənəvinin də bir müməssili, Nur şagirdlərinin təsanüdündən gələn BİR ŞƏXSİ mənəvisi və O ŞƏXSİ-MƏNƏVİNİ BİR NÖV MÜMƏSSİLİ OLAN BİÇARƏ (yazıq) TƏRCÜMƏÇİSİ ZƏNN ETDİKLƏRİNDƏN BƏZƏN O ADI ONA DA VERİRLƏR . HƏRÇƏND BU, BİR İLTİBAS (qarışdırma) VƏ BİR SƏHVDİR (səhvdir), lakin onlar onda məsul deyildirlər. Çünki çox hüsnü zənn çoxdan bəri cərəyan edir və etiraz edilməz. Mən də o qardaşlarımın çox-çox hüsnü zənnlərini bir növ dua və bir təmənna və Nur tələbələrinin kamalı etiqadlarının bir hissəsi gördüyümdən onlara çox fikir verməzdim. Hətta köhnə övliyanın bir qismi kəraməti-qeybiyələrindən Risaleyi- Nuru eyni o axırzamanın hidayət edicisi olduğu, deyə kəşfləri bu təhqiqat ilə şərhi- aydın olar. Demək, iki nöqtədə bir şübhə var, şərh lazımdır.

**Birincisi:** AXIRDAKI İKİ VƏZİFƏ, HƏRÇƏND ,HƏQİQƏT NÖQTƏSİNDƏ BİRİNCİ VƏZİFƏ DƏRƏCƏSİNDƏ DEYİL, lakin xilafəti Məhəmmədiyə (s.ə.v) və İslam Birliyi ordularıyla yer üzündə səltənəti- İslamiyəni sürmək cəhətində hər kəsdə, xüsusilə avamda, xüsusilə əhli siyasətdə, xüsusilə bu əsrin əfkarında o birinci vəzifədən min dərəcə geniş görünür və bu ad bir adama verildiyi vaxt, bu iki vəzifə xatirə gəlir; siyasət mənasını hiss etdirər; bəlkə də bir lovğalıq mənasını ağla gətirər; bəlkə bir şan, şərəf və mövqepərəstlik və şöhrətpərəstlik arzularını göstərər və çoxdan bəri və indi də çox saf və mövqepərəst şəxslər "Mehdi olacağam," deyə iddia edərlər. HƏRÇƏND, HƏR ƏSRDƏ HİDAYƏT EDİCİ BİR NÖV MEHDİ VƏ MÜCƏDDİD GƏLİR VƏ GƏLMİŞDİR, LAKİN HƏR BİRİ ÜÇ VƏZİFƏLƏRDƏN BİRİNİ BİR İSTİQAMƏTDƏ ETMƏSİ ETİBARİLƏ, AXIRZAMAN BÖYÜK MEHDİSİ ÜNVANINI GÖTÜRMƏMİŞLƏR ...

**Əmirdağ Lahikası-1, səh. 231-232**

Ustadın; hz. Mehdi (ə.s)-ın üç vəzifəsi bir yerdə edəcəyini ifadə etdiyi bu sözü təkrardan şərh edilməyə ya da təfsir edilməyə ehtiyac buraxdırmayacaq qədər açıq və aydındır. Həmçinin, Ustad bu sözündə, axırzamanın böyük Mehdisinin zühur edəcəyi hicri 1400-cü ildən əvvəl də, bu vəzifələrdən birini bir cəhətdə edən mehdilərin gəldiyini də ifadə edir. Ancaq onlara; **"bir növ hz. Mehdi (ə.s.) və mücəddid "**şəklində xitab edir. Əgər bəzi Nur tələbələrinin iddia etdikləri kimi axırzamanın böyük Mehdisi üç vəzifəsi, bir yerdə deyil də, yalnız tək bir sahədə edəcək olsaydı, Ustad digər mücəddidlərə xitab etdiyi kimi hz. Mehdi (ə.s)-a da **"bir növ Mehdi"** sifətini verər və özündən Risalə boyunca bu şəkildə bəhs edərdi. Halbuki, hz. Mehdi (ə.s.) üçün Ustad; "Axırzamanın Böyük Mehdisi" ifadəsini

istifadə etməkdə və belə xitab etməsinin səbəbi olaraq da onun üç vəzifəni bir yerdə edəcəyini göstərməkdədir:

**.... HƏRÇƏND HƏR ƏSRDƏ HİDAYƏT EDİCİ BİR NÖV MEHDİ VƏ MÜCƏDDİD GƏLİR VƏ GƏLMİŞDİR, LAKİN HƏR BİRİ ÜÇ VƏZİFƏLƏRDƏN BİRİNİ BİR CƏHƏTDƏ ETMƏSİ ETİBARİLƏ, AXIRZAMANIN BÖYÜK MEHDİ ÜNVANINI GÖTÜRMƏMİŞLƏR.**

**Əmirdağ Lahikası-1, səh. 232**

Ayrıca Ustadın hz. Mehdi (ə.s) -dan bəhs etdiyi digər ifadələrində onun fərqliliyini ifadə etmək üçün **"O böyük şəxs" "Baş komandir", Mehdi Ali-Rəsul, "ƏN BÖYÜK BİR MÜCTƏHİD, HƏM ƏN BÖYÜK BİR MÜCƏDDİD, HƏM HAKİM, HƏM MEHDİ, HƏM MÜRŞİD, HƏM QÜTBÜ- ƏZƏM, "Axırzamanda gələcək bir mücəddidi- əkbər", "əcaib şəxs", "HƏQİQİ GÖZLƏNİLƏN VƏ BİR ƏSR SONRA GƏLƏCƏK O ŞƏXS", "1400 il sonra gələcək bir HƏQİQƏT"** kimi xitablar istifadə etməsi də hz. Mehdi (ə.s)-ı əvvəlki əsrlərdə gəlmiş ancaq tək bir cəhətdə vəzifə etmiş digər mübarək insanlardan mövqe olaraq ayırdığını göstərən digər dəlillərdəndir.

## 2.RİSALƏYİ- NUR KÜLLİYYATINDA USTAD İFADƏ ETDİYİ "MEHDİ" VƏ "MEHDİ ALİ-RƏSUL" İFADƏLƏRİNİN GUYA BAŞQA-BAŞQA ADAMLARI İFADƏ ETDİYİ İDDİASI TAMAMİLƏ SƏHVDİR

Bu da çox əhəmiyyətlidir ki, bəzi nur tələbələri digər tərəfdən Ustadın hz. Mehdi (ə.s) -dan bəhs edərkən istifadə etdiyi **Mehdi** və **Mehdi Ali- Rəsul** anlayışlarını da bir-birindən ayrılmış kimi göstərməyə cəhd etmişlər. Mehdi sifətinin Mehdi Ali- Rəsul sifətindən guya daha aşağı bir məqamı ifadə etdiyini çünki ,Ustadın bəhs etdiyi Mehdi Ali- Peyğəmbərə keçən Rəsul ifadəsinin **əsər verilən** mənasında olduğunu bu səbəblə də İmam Rəbbani Həzrətləri, Gilani Həzrətləri, Mövlana Xalid və Ustad Həzrətləri kimi əsər sahibi mücəddid ifadə etdiyini iddia edirlər. Axırzamanın Mehdisinin isə guya Ustadın hazırladığı əsərlərdən faydalanması səbəbiylə əsər sahibi ola bilməyəcək səbəbindən **Mehdi Ali-Rəsul da** ola bilməyəcək.

Halbuki, Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədisi-şəriflərdə hz. Mehdi (ə.s)-ın əlində öz hazırladığı böyük əsərlərinin olacağı və inkar edənlərə qarşı bu nəhəng əsərlərlə fikri bir mübarizə edəcəyi bildirilmişdir:

Mən esfarla (böyük kitablarla) mübarizə etmədikcə dünya getməz (qiyamət qopmaz) ... Onlarla fikri mübarizə etmək üzrə Allah yolunda döyüşən, laimin (başqasını pisləyən) levmindən (çəkişdirməsindən) çəkinməyən, möminlərin seçkinlərindən olan əhli -Hicaz yola çıxacaq və **Kostantinopol ilə Rumu (Roma)-nı təsbih və təkbirlə fəth edəcəklər ... O şəhərin divarları bir-bir yıxılacaq. .. "**

(**İbni Macə və Hakim)**

Yenə İmam Sadiq (r.ə)-dan köçürülən bir hədisi-şərifdə də hz. Mehdi (ə.s) -ın üzərində qızıl zərli möhür olan kitablarıyla böyük bir təbliğ fəaliyyəti edəcəyi bildirilmişdir:

İmam Sadiq deyir ki: Qaim (Hz. Mehdi (ə.s.)) müəyyən bir geyim geydiyində Peyğəmbər (s.ə.v)-in qızıl möhürlə möhürlənmiş məktubunun (kitabının) möhürünü çıxararaq (qapağını açaraq), insanlara yüksək səslə oxuyacaq. "

**(Biharül- Ənvar, c. 52, səh.326)**

Əgər bu məntiq olsaydı, Ustadın özündən əvvəl gələn Əbdülqadir Gilani Həzrətlərinin, İmam Rəbbani Həzrətlərinin, Mövlana Xəlili- Bağdadi Həzrətlərinin və özünün bu üç vəzifəsi tək-tək yerinə yetirmək surətiylə axırzamanın böyük Mehdisini meydana gətirdiklərini risalələrdə ifadə etmiş olması lazım idi. Halbuki, tam əksinə Ustad axırzamanın böyük Mehdisi zühur etdiyində özünün vəfat etmiş olacağını, hz. Mehdi (ə.s.) və tələbələrini qəbrindən seyr edib Allaha şükr edəcəyini ifadə etmişdir:

**... TA AXIRZAMANDA, HƏYATIN GENİŞ DAİRƏSİNDƏ, ƏSL SAHİBLƏRİ, YƏNİ MEHDİ VƏ ŞAGİRDLƏRİ CƏNABI-HAQQ İCAZƏSİYLƏ GƏLƏR, O DAİRƏNİ GENİŞLƏNDİRƏR VƏ O TOXUMLAR SÜNBÜLLƏNƏR. BİZLƏR DƏ QƏBRİMİZDƏN SEYR EDİB ALLAHA ŞÜKÜR EDƏRİK.**

**(Kastamonu Lahikası, Səhifə 72, Tarixçeyi- Həyat, Səhifə 258, Xidmət Rəhbəri, Səhifə 267, Sikkeyi- Təsdiqi Qeybi, Səhifə 153)**

Yenə hz. Mehdi (ə.s.) üçün özündən sonrakı bir dövrdə zühur edəcəyini ifadə edən onlarla ifadəsi də Risalələrdə yer alır.

http://us2.harunyahya.com/Detail/T/7EZU2FZ0164/productId/23471/

## 3.HZ. MEHDİ (Ə.S)-IN USTADIN HAZIRLAMIŞ OLDUĞU ƏSƏRLƏRİ ÖZÜNƏ BİR PROGRAM ETMƏSİ SƏBƏBİYLƏ İŞİN GUYA ÇOX ASAN OLACAĞI, BU SƏBƏBLƏ ƏSL USTADIN HZ. MEHDİ (Ə.S) OLDUĞU İDDİASI TAMAMİLƏ SƏHVDİR

Yenə bəzi nurcu qardaşlarımız axırzamanda bu üç vəzifəni yerinə yetirərkən Risaleyi-Nuru özünə proqram etməsi səbəbiylə hz. Mehdi (ə.s) -ın etdiyi bütün işin Ustada aid olacağını da iddia edirlər. Ustadın əsl memar olduğunu, hz. Mehdi (ə.s)-ın isə, haşa, bir inşaat ustası kimi onsuz da hazır olan bir proqram üzərində vəzifəsini icra edəcəyini iddia edirlər. Hz. Mehdi (ə.s)-ın işinin guya çox asan olacağını eyham edərək, axırzamanın ən şiddətli zamanında vəzifə alacaq gəlmiş keçmiş ən böyük vəli və qütbü -əzəm vəzifəsini sanki kiçik görən yanaşma içində olmaqdadırlar. Yenə eyni kəslər hz. Mehdi (ə.s)-ın ustadın tələbəsi mövqeyində olacağını da ifadə edərək risalələrə tamamilə zidd bir məntiq inkişaf edirlər. Halbuki, Ustad hz. Mehdi (ə.s)-ın bir qabaqcıl əsgəri, ona yer hazırlayan bir adamı , bir xidmətçisi olduğunu risalələrində çox açıq bir şəkildə ifadə etmişdir.

**LAKİN O İRƏLİDƏ GƏLƏCƏK ƏCAİB (təəccübləndirən və heyrət oyandıran, bənzəri görülməyən; qəribə) ŞƏXSİN BİR XİDMƏTÇİSİ VƏ ONA YER HAZIR EDƏCƏK BİR DÜMDARI (Ordunun geridən gələn təhlükəsizlik qüvvəsi) VƏ O BÖYÜK KOMANDİRİN PİŞDAR (qabaqcıl) BİR NƏFƏRİ (əsgəri) OLDUĞUNU ZƏNN EDİRƏM. ...**

**(Barla Lahikası, səh. 162)**

Risalələrin heç bir yerində Bədiüzzaman Səid Nursi Həzrətləri belə bir məntiqi işlətməmişdir. Həmçinin, bu məntiqdə düşünüldüyü təqdirdə Bədiüzzamanın bütün xidmətlərinin; özünün istər nəqşi və istər qadiri istiqaməti olması səbəbiylə qadiri təriqətinin qurucusu və dolayısilə də Ustadın müəllimi olan Əbdülqadir Gilani Həzrətlərinə keçəcəyi kimi bir vəziyyət olacaq. Bu səbəbdən Ustadın tələbələri üçün də eyni vəziyyət keçərli olacaq. Onlar arasından hz. Mehdi (ə.s) -ın üç vəzifəsindən birini bir istiqamətdə etdiyini iddia edənlər varsa, onların da etdikləri Səid Nursi Həzrətlərinə, Əbdülqadir Gilani Həzrətlərinə keçəcək. Nəticədə, nə Səid Nursi Həzrətləri, nə də Nur camaatının mənsubları axırzamanın böyük Mehdisi ola bilməyəcəklər və Əbdülqadir Gilani Həzrətlərinin hz. Mehdi (ə.s) olduğunu qəbul edəcəklər. Ancaq Əbdülqadir Gilani Həzrətləri, Ustadın; **"bir növ Mehdi və mücəddid"** hökmündə gördüyü bir şəxsi-möhtərəmdir. Ancaq hz. Mehdi (ə.s) zamanında reallaşdırılması lazım olan 3 böyük vəzifəni bir yerdə yerinə yetirməmiş olması səbəbiylə özü axırzamanın Mehdi (ə.s)-ı ünvanını almamışdır.

## 4.RİSALƏLƏRİN RUHUNA ZİDD ŞƏRH ETMƏLƏRİ BƏZİ NURÇU QARDAŞLARIMIZA USTADI VƏ RİSALƏLƏRİ LAZIM OLDUĞU KİMİ ANLAYA BİLMƏDİKLƏRİNİ GÖSTƏRİR

Bu da çox əhəmiyyətlidir ki; Nur tələbələri Ustadın hz. Mehdi (ə.s) və hz. İsa (ə.s.) haqqındakı son dərəcə açıq və dəqiq olan izahlarına çox fərqli izahlar gətirərək öz aralarında fərqli cəbhələr də meydana gətirirlər. Ancaq bu vəziyyətləriylə, əslində həm Ustadı, həm də risalələri lazım olduğu kimi anlayıb qavraya bilmədiklərini ortaya qoyurlar. Çünki, öz aralarında fərqli qruplara ayrılan nurculardan bəzisi Ustad hz. Mehdi (ə.s)-dır deməkdə, bəzisi hz. Mehdi (ə.s) və Hz. İsa (ə.s.) üçün; "daha əvvəl gəldilər və vəfat etdilər" deməkdə, bir qismi də" ikisi də vəfat etdilər ruhları Dabbətül -Ərzdə toplandı və bu an vəzifədə" deməkdə, bəzisi "Hz. Mehdi (ə.s) risalələrdir" deyərkən, bir qismi də "Hz. Mehdi (ə.s) görünməzdir, çünki, şəxsi mənəvidir "deməkdə, bəzisi "Hz. İsa (ə.s) da, hz. Mehdi (ə.s) da şəxsi- mənəvidir" deməkdədir, ən son olaraq da bütün bu fikirlərin hamısını bir kənara buraxaraq; "Axırzamanda tək bir Mehdi deyil, üç ayrı Mehdi çıxacaq, eyni anda zühur edəcəklər, biri siyasət, biri diyanət, biri də səltənət aləmində vəzifə yerinə yetirəcəklər "kimi son dərəcə səhv bir fikirlə ortaya çıxırlar. Halbuki, ortaya qoyulan bütün bu məntiqlər həm əlaqədar kəslər, həm də eyni düşüncəni müdafiə edən digərləri baxımından çox böyük bir utanc vəsiləsidir. Çünki ,ortaya atdıqları bu iddiaların hamısı risalələrdə yazılanlarla qəti olaraq ziddir. Risalələrin ruhundan qopmuş, Ustadın düşüncələrindən uzaq, səhv anlayışları əhatə edir.

Sırf hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın bu əsrdə bir şəxs olaraq gələcəklərini qəbul etməmək, onların gəlib keçdiklərini söyləmək, Mehdiyyət mövzusunu bir etibar mövzusu kimi görmək ya da Ustada qarşı mənəvi bir qoruma hissini ayaqda tutmaq üçün,-Ustadı tənzih edirik-onu yalançı kimi göstərən , son dərəcə açıq olan ifadələrini, ancaq şərh edilərək aydın olan kompleks, aydın olmaz, təşbehli izahlarla dolu ifadələr kimi göstərən bir zehniyyət təhlükəlidir.

## USTAD HZ. MEHDİ (Ə.S) -A DƏRİN BİR SEVGİ VƏ HÖRMƏTLƏ BAĞLIDIR ,ONUN QABAQCIL BİR ƏSGƏRİ VƏ KÖMƏKÇİSİDİR.

Ustad hz. Mehdi (ə.s)-a eşqlə, dərin bir sevgi və sədaqətlə bağlı bir şəxs olmasına baxmayaraq və özü şəxsən risalələrindən hz. Mehdi (ə.s)-ın xidmətçisi, qabaqcıl əsgəri, dümdarı olduğunu ifadə edərək ona olan sevgisini, hörmətini, heyranlığını çox açıq bir şəkildə ifadə edərkən, Ustadı-öz iradəsi xaricində-sanki Mehdilik mövqeyi üçün yarışan, haşa hz. Mehdi (ə.s)-dan üstün olma iddiasında olan, hz. Mehdi (ə.s)-ı özündən, haşa, aşağı bir mövqedə görən biri kimi göstərməyə çalışmaq son dərəcə çirkindir.

Hz. Mehdi (ə.s) axırzamanda Ustadın hazırladığı risalələr ilə təbliğ işləri edəcək, Risaleyi-Nuru özünə hazır bir proqram edib onunla birinci vəzifəsini yerinə yetirəcək ki, bu onun Risaleyi- Nurun ruhunu çox yaxşı qavramış olduğunu, Ustadı çox yaxşı anladığını, risalələri anlama və izah etmə gücünün çox yüksək olduğunu göstərir. Bu vəziyyət iki şəxsi- möhtərəmin də bir-birlərinə dərin bir sevgi və hörmət ilə bağlı olduqlarının açıq bir ifadəsidir.

Birincisi: **FƏNN VƏ FƏLSƏFƏNİN TƏSƏLLÜTİYLƏ** (təsiriylə) **VƏ MADDİYYUN VƏ TABİYYUN TAUNU BƏŞƏR ÜÇÜN İNTİŞAR ETMƏSİYLƏ , HƏR ŞEYDƏN ƏVVƏL FƏLSƏFƏNİ VƏ MADDİYYUN** (MATERİALİZM, DARVİNİZM VƏ ATEİZM EPİDEMİYAS), **FİKRİNİ TAM SUSDURACAQ BİR TƏRZDƏ İMANI QURTARMAQDIR . ƏHLİ-İMANI DƏLALƏTDƏN MÜHAFİZƏ ETMƏK** (iman edənləri azğınlıqdan qorumaq) **və bu vəzifə həm dünya, həm hər şeyi buraxmaqla, çox zaman tədqiqatı** (tədqiqlər) **ilə məşğuliyyəti iktiza etdiyindən** (tələb), **Həzrət-i Mehdinin, o vəzifəsini şəxsən özü görməyə vaxt və hal icazə edə bilməz. Çünki, xilafəti Məhəmmədiyə (s.ə.v) cəhətindəki səltənəti, onun ilə məşğuliyyətə vaxt saxlamır. HƏR HALDA O VƏZİFƏNİ**

ONDAN ƏVVƏL BİR TAİFƏ BİR CƏHƏTDƏ GÖRƏCƏK. O ŞƏXS, O TAİFƏNİN UZUN TƏTKİKATI (tədqiqləri) İLƏ YAZDIQLARI ƏSƏRİ ÖZÜNƏ HAZIR BİR PROQRAM EDƏCƏK, ONUN İLƏ O BİRİNCİ VƏZİFƏNİ TAM ETMİŞ OLACAQ. BU VƏZİFƏNİN İSTİNAD ETDİYİ (söykəndiyi) QÜVVƏT VƏ MƏNƏVİ ORDUSU, TƏK İXLAS VƏ SƏDAQƏT VƏ təsanüd SİFƏTLƏRİNƏ TAM SAHİB OLAN BİR QİSİM ŞAGİRDLƏRDİR. NƏ QƏDƏR DƏ AZ OLSALAR, MƏNƏN BİR ORDU QƏDƏR QÜVVƏTLİ VƏ QİYMƏTLİ SAYILARLAR.

**Əmirdağ Lahikası-1, səh. 23**

Ustad və hz. Mehdi (ə.s) arasında belə güclü bir mənəvi bağlılıq varkən, bəzi nurçu qardaşlarımızın mehdiyyət mövzusunu nurçular baxımından bir cür yarış halına gətirmiş olmaları və Ustadın adını-Bədiüzzaman Səid Nursi Həzrətlərini tənzih edirik-bu mövzuya vasitə etmələri son dərəcə səhvdir.

**Hz. Mehdi (ə.s.) bütün bu iddiaların tam əksinə yaşadığımız dövrdə zühur edəcək və siyasət, səltənət və diyanət sahəsindəki üç vəzifəni bir yerdə icra və tətbiq edəcək. Özünə Ustad tərəfindən axırzamanın böyük Mehdisi, ən böyük mücəddid, ən böyük müctəhid, Mehdi Ali- Elçisi, ən böyük Hakim, Mürşid və Qütbü -Əzəm deyilməsi də bu səbəblərlədir.**

https://www.harunyahya.info/az/meqaleler/hz-mehdi-es-in-zuhuruna-istiqametli-olaraq-risalelerde-yeri-olmayan-bezi-sehv-izahlara-cavablar-ve-h-10856